**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 264**

**Bakı şəhəri, 11 iyun 2019-cu il**

**“Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. “Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərar 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş Naziri** **Novruz Məmmədov**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2019-cu il 11 iyun
tarixli 264 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir**.

# Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi

# QAYDASI

## 1. Ümumi müddəa

1.1. Bu Qayda "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-25.2-ci maddəsinə əsasən hazırlanmışdır və tibb təchizatçısı və ya tibbi ərazi bölməsi (bundan sonra – təchizatçı) tərəfindən icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi qaydasını müəyyən edir.

## 2. Qaydanın əhatə dairəsi və müddəti

2.1. Bu Qayda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) ilə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-19-cu maddəsinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilənin nümunəvi formasına uyğun olaraq müqavilə (bundan sonra – müqavilə) bağlamış təchizatçılara şamil edilir və müvafiq təchizatçı üçün həmin müqavilənin qüvvədə olduğu müddətdə etibarlıdır.

## 3. Təchizatçı tərəfindən icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərlə bağlı hesabata daxil olan məlumatlar

3.1.Təchizatçı tərəfindən icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərlə bağlı bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş hesabat formasına daxil edilən məlumatlar aşağıdakılardır:
3.1.1. təchizatçının adı və hüquqi ünvanı (ünvanı);

3.1.2. təchizatçının Agentliklə bağladığı müqavilənin tarixi və nömrəsi;

3.1.3. hesabatın təqdim olunduğu dövr;

3.1.4. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətin növü və sayı;

3.1.5. icbari tibbi sığorta çərçivəsində tibbi xidmət göstərilmiş sığortaolunanların sayı;

3.1.6. sığortaolunanın təchizatçıya müraciət müddəti;

3.1.7. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətin məbləği (ƏDV daxil edilməklə);

3.1.8. azadolma məbləği (ƏDV daxil edilməklə);

3.1.9. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmət üzrə sığorta ödənişinə təqdim edilmiş məbləğ (ƏDV daxil edilməklə);

3.1.10. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlər üzrə sığorta ödənişinə təqdim edilmiş ümumi məbləğ (ƏDV daxil edilmədən);

3.1.11. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlər üzrə tətbiq edilən ƏDV;

3.1.12. icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlər üzrə sığorta ödənişinə təqdim edilmiş ümumi məbləğ (ƏDV daxil edilməklə).

## 4. Təchizatçı tərəfindən hesabatın təqdim edilməsi qaydası

4.1. Təchizatçılar hər ayın 15-dən gec olmamaq şərtilə ötən təqvim ayı üzrə icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərlə bağlı hesabatı təchizatçı fiziki şəxs olduqda imzası, hüquqi şəxs olduqda rəhbərin imzası və möhürü ilə təsdiq etməklə Agentliyə təqdim edirlər.

“Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi Qaydası”na
**əlavə**

**Təchizatçı tərəfindən icbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlərlə bağlı HESABAT**

“______ ” rayon (şəhər)

**“____”_________20___ - il**

Təchizatçının adı və hüquqi ünvanı (ünvanı) ___________________________________________________________
Müqavilənin tarixi və nömrəsi “___”_____ 20___- il tarixli _____ nömrəli
Hesabat təqdim edilən dövr “___”_____ 20___- il tarixindən “___”_____ 20___- il tarixinədək

| **İcbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmət** | | **İcbari tibbi sığorta çərçivəsində tibbi xidmət göstərilmiş sığortaolunan** | **Müraciət müddəti** | **İcbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətin məbləği** | **Azadolma məbləği** | **İcbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmət üzrə sığorta ödənişinə təqdim edilmiş məbləğ** |
|---|---|---|---|---|---|---|
| növü | sayı | sayı | təqvim ayı üzrə | (ƏDV daxil edilməklə, manatla) | (ƏDV daxil edilməklə, manatla) | (ƏDV daxil edilməklə, manatla) |
| | | | | | | |
| | | | **İcbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlər üzrə sığorta ödənişinə təqdim edilmiş ümumi məbləğ (ƏDV daxil edilmədən, manatla)** | | | |
| | | | **İcbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlər üzrə tətbiq edilən ƏDV** | | | |
| | | | **İcbari tibbi sığorta çərçivəsində göstərilmiş tibbi xidmətlər üzrə sığorta ödənişinə təqdim edilmiş ümumi məbləğ (ƏDV daxil edilməklə, manatla)** | | | |

**Təsdiq edirəm:**

_____________________________________________
(təchizatçı)

___________________ ___________________ ___________
(vəzifəsi) (adı, soyadı) (imza)

M.Y.